tam hazırdır, ailəsi də elə böyük de-

uzun ömür arzulayıram.



■ **Tural Cəfərli**

### ÖMÜR

Bilsən ki, ömrün sonudu,
Bitir, bitir, lap sonudu.
Nə ağrılı, nə kədərli,
Uşaq üzlü, xoş sifətli,
Bir xatirə seç özünə...

Gecədirsə, göy üzündən
Ulduzlardan birini seç
Arzuları azad eylə,
Ümidlərin içindən keç...

Səhərdirsə, bir çay süzüb
Dəm yerinə sevgi qoyub
Çağır qonaq gəlsin yenə
Qonaq gəlsin ömrün yenə...

Yox, əgər, daha gecdirsə,
Ömür bitmək üzrədirsə,
Əllərindən qaçan ömrü,
Gözlərindən uçan ömrü,
Bir nəfəslik dərib qoxla,
Qoxla, rahat-rahat qoxla.
Sonra vərəq çıxar ordan
Son cümləni yaz vərəqə
O cümlədən tanıyacaq
Doğmaların yəqin səni...

Bilsən ki, ömür  sonudu,
Qorxma, canım üçün qorxma.

* * *

Aldatmağa özümdən başladım,
Ən şirin sözümdən başladım.
Çox da görmək istəyirdim
Çox da bilmək istəyirdim
Yalanları yaxşı görüb,
Yaxşı sezib anladıqca,
Sıxılırdım öz içimdə
Odur sıxıntıdan qurtulmaqçün
Qapanmağa gözlərimdən başladım...

### SUAL

Nə sorğu-sualdı görən?!
Nə imtahandı belə?
O dünyada hazırlanan,
Nə tapmacadı elə?

Mən bilmirəm, nə olacaq,
Nə olsa da bir cavabım
Mənimlə birgə olacaq...

Bölüşəndə günahlarım
Görsəm cəhənnəmdi yaxın
Heç vecimə almayacam
Yanmaq atəşdə nə ki?
Bu dünyada yaşadınsa,
Hər şey cəhənnəmə ki...

### BULUD

Bu yağışa daş da atsan,
Bu yağış heç kəsən deyil.
Baxma üstümüz islanıb,
Ruhumuz heç küsən deyil.

Yığılıb bir topa bulud,
Başımın üstündə durub
Nə çəkilir, nə dağılır,
Bilmirəm nə hiylə qurub.

Bu buluda söz atıram,
Qaş oynadıb, göz atıram.
Nə edirəm alınmır ki,
Nə edirəm xeyri yoxdu...

Üzlü qonaq kimi durub,
Getmir, inad edir, getmir...
Demə yola salınmır ki,
Hər gün ötürrəm onu mən,
Həm gecədən, həm səhərdən,
Bir-bir götürrəm onu mən.

Tale adlı bir nəsnədə,
Oyun qurub gözləyirik.
Qalib məlum, məğlub məlum,
Onda nəyi izləyirik?

### ARZU

Qəribə arzular var,
Məsələn arzuya bax:
"Görüm səni nə edim,
Necə edim deməyəsən..."
Sən Allah, sən mənim canım
Belə də arzu olar?!

Biz arzularımızı da,
Özümüz kimi qəfəsə salmışıq
Açarı da atmışıq dənizə....
Gəl indi arzu tut sən,
Tutsan balıq tutarsan
Qarmağın yaxşı olsa...

Bizim arzularımız,
Elə əlçatmazdı ki,..
Bir də o arzulardan
Özümüzə yuva qursaq
Bir gün də o yuvada
Rahat ola bilmərik...

Bir arzudan neçə söz,
Neçə fikir dağıldı.
Arzular yaşamaq üçün,
Uydurulmuş nağıldı.



Kaspi.- 2020.- 25-27 yanvar.- S.13